AZƏRBAYCAN XƏBƏRLƏRİ

SOCAR Çinin neft şirkəti ilə strateji əməkdaşlığa başlayır

Noyabr 09, 2026



Anlaşma Memorandumunu vitse-prezidentlər Fuad Musayev və Li Yüsin imzalayıblar.

Çinin Şanxay şəhərində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə "China Petroleum&Chemical Corporation" (Sinopec Corp.) arasında Strateji əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

SOCAR-ın noyabrın 9-da yaydığı məlumata görə, sənədə qurumun vitse-prezidenti **Fuad Musayev** və "Sinopec Corp." şirkətinin vitse-prezidenti **Li Yüsin** imza atıblar. Memorandum şirkətlər arasında satınalma və təchizat zəncirinin idarə olunması sahələrində əməkdaşlığın genişləndirilməsini hədəfləyir.

Ümumiyyətlə, son illər Azərbaycanla Çin arasında həm iqtisadi, həm də siyasi müstəvidə nəzərəçarpacaq yaxınlaşma müşahidə olunur. Məsələn, bu ilin əvvəlində SOCAR, Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumu birgə "Galaxy Orientis" Çin–ASEAN İnvestisiya Platformasını (CAIP) təsis ediblər.

Xatırlatma

İki ölkə arasındakı tərəfdaşlıq rəsmi sənədlərlə də möhkəmləndirilib: 2024-cü il iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub, ötən il isə ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında saziş qüvvəyə minib.

Hazırda Çin Azərbaycanın idxalında birinci yeri tutur. Eyni zamanda, rəsmi Bakı Pekinin əsas rol oynadığı bir sıra beynəlxalq qurumlarla da əlaqələrini gücləndirib.

Müxalifət düşərgəsi isə fərqli mövqedədir: onlar Çin və Rusiya kimi ölkələrlə əlaqələri dərinləşdirməkdənsə, Qərbə inteqrasiya prosesini sürətləndirməyi vacib sayırlar. Müxalifətin fikrincə, Çinlə yaxınlaşma ABŞ ilə güclənməkdə olan əməkdaşlığa da xələl gətirə bilər.



BUNA DA BAX:

SOCAR ABŞ şirkəti ilə 1.65 milyard dollarlıq yekun müqavilə imzalayıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur